**Teymurov A.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2018.54.217-248**

# Manage internal supervision and supervision of prosecutor over prosecution of investigation procedures

**Abstract**: Procedural powers of prosecutor during pre-trial production are determined by a lawmaker with considering of two directions of activity of this participant of criminal proceedings: on behalf of a state to perform criminal prosecution and supervise for procedural activity of inquiry bodies and preliminary investigation.

Presence of these directions of activity causes necessity their differentiation for correct determination of a prosecutor's powers on each of them although in practice they are closely intertwined and interconnected with each other.

Under prosecutor's supervision for production of investigative actions is understood an activity of prosecutor on disclosure of the facts of law violations at making decisions and conducting investigative actions, reacting them, and also on prevention these violations at their production.

Establishing of judicial control for pre-trial production is the most important step in the way of realization of judicial legal reform in Azerbaijan Republic, aimed to strengthening of judicial power in the country.

Transmission the right from prosecutor's office to independent judicial power gives permission to investigative bodies for conducting investigatory and other procedural actions associated with restriction of constitutional rights and freedoms of citizens and impeding access to justice allows eliminating subjectivism at making appropriate procedural decisions. It serves an effective

♦ **Teymurov Allahverdi Ahmedkhan oglu -** PhD in Law, Associate Professor, a senior researcher of Department for Criminal Law and Human Rights of the Institute of Law and Human Rights of National Academy of Sciences (Azerbaijan). E-mail: allahverdi.teymurov@gmail.com

guarantee against unjustifiably broad application of enforcement measures and violation of procedural rights of process participants.

It is considered the issues of realization of departamental control over production of investigative actions, which is carried out by a chief of investigative department (station, department), a head of specialised department of inquiry of inqiry body and their powers.

It makes clear an essence of prosecutor supervision over production of investigative actions.

**Keywords:** investigation; preliminary investigation; prosecution; manage internal supervision; supervision of prosecutor; action; violation.

İstintaq hərəkətlərinin icraatı üzərində idarədaxili prosessual nəzarət AR CPM-də istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinə (rəis olmadıqda müavininə), eləcə də, təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbərinə verilmiş nəzarət səlahiyyətləri ilə şərtlənir. Belə ki, AR CPM-in 85.6-cı maddəsinə əsasən, müstəntiqin bütün səlahiyyətlərindən istifadə edən istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini) AR CPM-in tələblərinə əməl edərək törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə ibtidai istintaqın və ya *ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını* (*qeydetmə – A.Ə. Teymurov*) müstəntiq, yaxud müstəntiqlər qrupuna tapşırır, müstəntiqin cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə *nəzarəti həyata keçirir* (*qeydetmə – A.Ə. Teymurov*).

Eynilə, AR CPM-in 86.7-ci maddəsi təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbərinə törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasının təşkili, onlara baxılmasının, cinayət işi üzrə təhqiqatın və ya *ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasının* (*qeydetmə*

– *A.Ə. Teymurov*) təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırılması, eləcə də, təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə *nəzarətin həyata keçirilməsini* (*qeydetmə – A.Ə. Teymurov*) həvalə edir.

Göründüyü kimi, hal-hazırda Azərbaycan Respublikasının cinayət prosesində istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini), eləcə də, təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbəri tabeçiliklərində olan müstəntiq və təhqiqatçılara istintaq hərəkətləri həyata keçirmək tapşırığı verməklə, eləcə də, onların cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarət etməklə istintaq hərəkətlərinin icraatı üzərində idarədaxili prosessual nəzarəti həyata keçirirlər.

İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəis olmadıqda müavininin), eləcə də, təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbərinin nəzarət səlahiyyətlərinin təhlili belə deməyə əsas verir ki, predmetinə görə onların həyata keçirdikləri nəzarət prokuror nəzarəti ilə, demək olar ki, eyni həcmli olsa da (çünki, onların nəzarəti, faktiki olaraq, cinayətin açılması, araşdırılması və qarşısının alınmasına yönəlmiş bütün tədbirləri əhatə edir), nəzarət aktları qəbul etmək baxımından onların səlahiyyətləri prokuror nəzarəti ilə müqayisədə xeyli məhduddur. Belə ki, nə istintaq şöbəsi rəhbərinin (rəis, yaxud müavin), nə də təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumu rəhbərinin prokuror kimi, istintaqın hərtərəfli, tam və obyektiv aparılmasını və cinayət təqibi üzrə icraatın tezliyini təmin etmək məqsədi ilə, habelə qanunun tələblərinin pozulması ilə istintaq edilən cinayət işini təhqiqatçının və ya müstəntiqin icraatından götürərək digər təhqiqatçının və ya müstəntiqin icraatına vermək, həmçinin, təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək səlahiyyətləri yoxdur.

Qanun yalnız istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini) üçün müstəntiqin icraatında olan işlərlə əlaqədar yuxarıda qeyd edilən

məsələlər üzrə baxılması məcburi olan vəsatətləri ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək səlahiyyəti nəzərdə tutur (*AR CPM-in 85.6.4-cü maddəsi*).

Göründüyü kimi, qüvvədə olan cinayət-prosessual qanunvericiliyin müddəalarına əsasən, istintaq hərəkətləri üzərində idarədaxili prosessual nəzarət yalnız bu istintaq hərəkətlərinin qanuniliyi və əsaslılığının yoxlanılması ilə məhdudlaşır və aşkar edilmiş qanun pozuntularına zəruri reaksiyanın verilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müraciət edilməsi tələb olunur. Göstərilən xüsusat istisna olmaqla, istintaq hərəkətlərinin icraatı üzərində idarədaxili prosessual nəzarət yoxlama metodikası, qanuniliyin və əsaslılığın qiymətləndirilməsi meyarları və s. amillərə görə prokuror nəzarəti ilə eyniyyət təşkil edir.

İstintaq hərəkətlərinin icraatı üzərində prokurorun nəzarət funksiyası isə onun cinayət prosesindəki müstəsna funksiyası ilə bağlıdır. Prokuror nəzarəti funksiyası Azərbaycan Respublikasının «Prokurorluq haqqında» Qanununun 4-cü maddəsində prokurorluğun fəaliyyətinin istiqamətləri sırasında aşağıdakı şəkildə nəzərdə tutulmuşdur: «…ibtidai istintaqa prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir; təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir…».

Səmərəli prokuror nəzarəti özündə qanun pozuntularının zamanında və tam şəkildə aşkar edilməsi, aradan qaldırılması və yeni qanun pozuntularının qarşısının alınması istiqamətində tədbirləri ehtiva edir. Prokuror nəzarəti mahiyyətcə hüquq pozuntularının faktiki hallarının müəyyən edilməsi və pozulmuş hüquqların bərpa edilməsinə dair prosessual fəaliyyətdir.

«Prokurorluq haqqında» Qanununun 17-ci maddəsinə görə, cinayət təqibinin həyata keçirilməsini təmin etmək məqsədilə prokurorluq ibtidai istintaqa prosessual rəhbərlik edir, qanunların icrasına və tətbiqinə nəzarət edir, bu sahədə qanunvericilik aktlarının icra vəziyyətini öyrənir və ümumiləşdirir. Həmin

qanunun 18-ci maddəsinə görə, prokuror təhqiqat orqanlarının fəaliyyətində qanunların eyni cür və dürüst icrasını və tətbiqini təmin etmək məqsədilə aşağıdakı nəzarəti həyata keçirir: cinayətlər və digər qanunazidd hərəkətlər barədə təhqiqat orqanlarına daxil olmuş ərizə və məlumatların qeydə alınması, onlara baxılması və müvafiq tədbirlər görülməsinə dair qanunvericiliklə müəyyən olunmuş qaydalara əməl edilməsi və təhqiqat orqanları tərəfindən Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsi və bu fəaliyyət prosesində qəbul olunan qərarların qanuniliyi.

Prokuror nəzarətinin əhəmiyyətli vasitələrindın biri onun təhqiqatçıdan və ya müstəntiqdən cinayət işinin materiallarını, sənədlərini, ibtidai araşdırmanın gedişi haqqında məlumatları tələb etmək, habelə cinayət işlərinin materiallarını və sənədlərini yoxlamaq, ibtidai araşdırmanın gedişi vəziyyəti ilə yerində tanış olmaq hüququdur (AR CPM-in 84.5.2-ci maddəsi). Yeri gəlmişkən, qeyd edək ki, AR CPM-in 84.5.2-ci maddəsində yalnız cinayət işinin materiallarının tələb edilməsi və yoxlanılması barədə müddəa öz ifadəsini tapsa da, nəzərə almaq lazımdır ki, ibtidai araşdırma zamanı cinayət təqibi ilə bağlı «cinayət işi» anlayışı ilə ehtiva edilməyən digər materiallar da toplanır və onlar da prokuror nəzarətinin obyekti kimi çıxış edir. Bu səbəbdən, AR CPM-in 84.5.2-ci maddəsində «cinayət işinin materiallarını» sözlərindən sonra «və ya cinayət təqibi ilə bağlı digər materialları» sözlərinin də əlavə edilməli olmasını lazımlı hesab edirik.

İstintaq və ya digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya və ya müstəntiqə yazılı göstərişlər vermək hüququ da prokurorun nəzarət səlahiyyətlərinə aid edilə bilər (*AR CPM-in 84.5.7-ci maddəsi*). İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təhqiqatçıya və ya müstəntiqə istintaq hərəkətinin aparılması barədə yazılı göstərişlər verərkən həmin göstərişlərin dəqiqliyinə, onların icrasının mümkünlüyünə diqqət yetirməli, habelə onların icrası vəziyyətinə nəzarət etməlidir, göstərişlər mütləq yazılı formada olmalı və dəqiq müəyyən olunmuş şəxsə ünvanlanmalıdır.

Təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququ (*AR CPM-in 84.5.8-ci maddəsi*) prokurorun nəzarət səlahiyyətlərinin ən bariz nümunəsidir. Prokuror təhqiqatçının və ya müstəntiqin qəbul etmiş olduğu qərarları nəzarət qaydasında yoxladıqda onların qanunsuz və əsassız olduğu qənaətinə gələrsə, belə qərarları ləğv etməklə yanaşı, bu qərarlara qanunda nəzərdə tutulmuş alternativ qərarlardan hər hansı birini də qəbul etməkdə haqlıdır.

Nəhayət, prokurorun təhqiqatçı və ya müstəntiqin qərar və hərəkətlərindən verilmiş şikayətlərə baxmaq hüququ (AR CPM-in 84.5.9-cu maddəsi) onun prosessual nəzarət funksiyasının icra edilməsinin əsas vasitələrindəndir. Təhqiqatçının və ya müstəntiqin prosessual hərəkətləri və ya qərarlarından cinayət prosesinin iştirakçıları, habelə AR CPM-də nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən şikayət verilə bilər.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, hüquq ədəbiyyatında prokurorun ayrı-ayrı istintaq hərəkətlərinin icraatı zamanı (hətta istintaq hərəkətinin gedişatına müdaxilə etməsə də) şəxsən iştirak etməsini, bu və ya digər istintaq hərəkətində tətbiq ediləcək texniki vasitənin seçimində (rəsmi göstəriş verməklə, tövsiyə etməklə və s.) iştirakını, o cümlədən, istintaq planının hazırlanmasında iştirakını da istintaq hərəkətlərinin həyata keçirilməsi üzərində prokuror nəzarətinin təzahürləri hesab edən müəlliflər mövcuddur [8, s. 351].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Baş prokuroru tərəfindən istintaq hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar qanunçuluğun təmin edilməsi və ya istintaq hərəkətlərinin icraatı üzərində prokuror nəzarətinin təşkili haqqında vahid bir əmr, yaxud göstəriş verilmiş olmasa da, Baş prokurorun başqa məsələlərə həsr edilmiş bir sıra əmrlərində (göstərişlərində) ayrı-ayrı istintaq hərəkətlərininn təşkilati məslələrinə, eləcə də, onların həyata keçirilməsi üzərində prokuror nəzarətinə dair müddəalara rast gəlmək mümkündür. Hesab edirik ki, istintaq hərəkətlərinin icraatı üzərində prokuror nəzarətinə dair tədqiqatın tamlığını təmin etmək üçün həmin əmrlərə (göstərişlərə) nəzər salmaq məqsədəuyğun olar.

Beləliklə, Baş prokurorun «Azərbaycan Respublikasının «İşgəncələrin və qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında» Avropa Konvensiyasına qoşulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə» 14 fevral 2003-cü il tarixli, 08/10 №-li Əmrinin 6-cı bəndində qeyd edilir: «Şübhəli və ya təqsirləndirilən şəxsə hər hansı formada işgəncə verilməsi barədə müdafiəçidən məlumat daxil olduqda dərhal keçirilməli olan məhkəmə-tibb ekspertizası zamanı şəxsin müayinəsində müdafiəçinin iştirakı təmin edilsin». Gördüyümüz kimi, qeyd edilən əmrin istinad edilən bəndi, faktiki olaraq, ekspertiza istintaq hərəkətinin keçirilməsinin məcburi olduğu hallardan birini müəyyən edir. Bu zaman, ekspertiza istintaq hərəkətinin həyata keçirilməsi üçün faktiki əsas qismində müdafiəçidən şübhəli və ya təqsirləndirilən şəxsə hər hansı formada işgəncə verilməsi barədə daxil olmuş məlumat çıxış edir. Prinsipcə, nəzərdən keçirilən əmrin müvafiq bəndi cinayət işi materialları ilə tanış olan və istintaq hərəkətlərinin qanuniliyi və əsaslılığına nəzarət funksiyasını icra edən prokuror üçün də konkret öhdəliklər yaradır. Belə ki, həmin əmrin müvafiq müddəalarından irəli gələn göstərişləri təmin etmək üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin materiallarını yoxlayarkən, o cümlədən, cinayət prosesi iştirakçılarının şikayət və ya vəsatətlərinə baxarkən, materiallarda şübhəli və ya təqsirləndirilən şəxsə işgəncə verilməsi barədə məlumatların olub-olmamasını, belə məlumatların olduğu hallarda, məhkəmə-tibb ekspertizasının təyin edilib-edilməməsini, ekspertizanın təyin edildiyi hallarda, onun rəyinin obyektiv, hərtərəfli və tam olub-olmamasını müəyyən etməli, rəyin nəticələrini qiymətləndirməlidir. Müvafiq məlumatların olduğu, lakin müstəntiq tərəfindən məhkəmə-tibb ekspertizasının təyin edilmədiyi hallarda isə, prokuror özü bu ekspertizanın təyin edilməsini təmin etməlidir. Bunlardan başqa, ekspert rəyinin qiymətləndirilməsinin nəticələrindən asılı olaraq da, prokuror müxtəlif qərarlar qəbul etməli olacaqdır. Məsələn, o, təkrar, əlavə yaxud komsiyon ekspertizalar təyin edə, işgəncələrə yol vermiş hüquq-mühafizə

orqanları əməkdaşları barədə məsuliyyət məsələsinin həlli barədə qərar qəbul edə və rəyin qiymətləndirilməsindən asılı olaraq digər hərəkətlər edə bilər. Başqa sözlə, aşkardır ki, Baş prokurorun 14 fevral 2003-cü il tarixli, 08/10 №-li Əmri ekspertiza istintaq hərəkətinin icraatı və bunun üzərində prokuror nəzarətinə dair əməl edilməsi məcburi olan qaydalar nəzərdə tutur.

Baş prokurorun «Cinayət təqibi zamanı «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvevsiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında» 1 dekabr 2006-cı il tarixli, 09/84 №-li Əmrinin 15-ci bəndində göstərilir ki: «Şübhəli və təqsirləndirilən şəxslərin ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək hüquqlarına hörmətlə yanaşılması cinayət-prosessual qanunvericliyində müəyyən edilmiş prosedurlara uyğun olaraq real təmin edilsin, irəli sürülmüş ittihamın yalnız bu şəxslərin verdikləri izahat və ifadələrlə əsaslandırılması hallarına yol verilməsin». Burada biz, Baş prokurorun əmrində, faktiki olaraq, dindirmə istintaq hərəkətinin icraatı zamanı şəxsiyyətin hüquqlarının təmin edilməsi məsələsinin nəzərə alındığının şahidi oluruq.

Ümumiyyətlə, qeyd edilməlidir ki, Azərbaycan Respublikası Avropa Şurasına daxil olduqdan və «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra, Konvensiyada nəzərdə tutulanları yerinə yetirməyi öz üzərinə öhdəlik kimi götürmüşdür. Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslər tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət etmək hüququnun mövcudluğu və Avropa Məhkəməsi tərəfindən bu şikayətlərin təmin edilməsi ehtimalını nəzərə alaraq, milli qanunvericiliyin Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması və bu hüququn milli qanunvericiliyə gətirilməsi zərurətə çevrilmişdir. Avropa

Məhkəməsinin presedent hüququnun Azərbaycan Respublikası qanunvericiliyinə gətirilməsində ən mühüm rol «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı oynamışdır. Fərmanın 6-cı bəndində Azərbaycan Respublikası Ali Məhkəməsi, apellyasiya məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir. Dövlət başçısının göstərilən Fərmanından irəli gələn məsələləri həll etmək üçün Ali Məhkəmənin Plenumu 30 mart 2006-cı il tarixdə «Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında» qərar qəbul etmişdir [1].

Bunun ardınca, 1 dekabr 2006-cı il tarixdə Baş prokurorun da «Cinayət təqibi zamanı «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvevsiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında» Əmr verməsi, həqiqətən də, müsbət hal kimi qiymətləndirilməlidir.

Baş prokurorun «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində prokurorluq orqanları qarşısında duran vəzifələr barədə» 11 yanvar 2010-cu il tarixli, 10/7 №-li Əmrinin 4-cü bəndində qeyd edilir ki: «Əmrin 3-cü bəndində nəzərdə tutulmuş məlumatların araşdırılması nəticəsində cinayət işinin başlanıldığı halda, ibtidai istintaq orqanı tərəfindən Maliyyə Monitorinqi xidmətinin qərarı ilə icrası dayandırılmış əməliyyatın daha uzun müddətə dayandırılması üçün Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 177.3.8-ci maddəsində nəzərdə tutulmuş qərarın qəbul olunması təmin olunsun».

Burada biz, Baş prokurorun əmrində AR CPM-in 177.3.8-ci maddəsinə birbaşa istinad edildiyini görürük. Xatırladırıq ki, AR CPM-n 177-ci maddəsi «İstintaq hərəkətlərinin məcburi aparılması hüququ» adlanır. Deməli, nəzərdən keçirilən əmrin müvafiq bəndi də istintaq hərəkətinin icraatı üzərində prokuror nəzarəti ilə bağlıdır. Yeri gəlmişkən, qeyd edək ki, bizim fikrimizcə, istintaq hərəkətlərinin icraatı üzərində prokuror nəzarəti məsələləri konketstində nəzər salacağımız növbəti əmr məzmunlu və ən genişidir.

Belə ki, Baş prokurorun «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» 28 iyul 2010-cu il tarixli, 10/70 №-li Əmrinin 2.7, 12.3, 12.26, 12.34 və 12.39-cu bəndlərində göstərilir ki: «Baş Prokurorluğun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən idarə rəisləri, AR Hərbi, Naxçıvan MR, Naxçıvan MR Hərbi və Bakı şəhər prokurorları ... idarə və şöbələrdə konkret cinayət təqibi materiallarının öyrənilməsi zamanı ... 5 gündən artıq müddətdə istintaq hərəkətləri aparılmaması, həbsdə olan şəxslərin dindirilməməsi, onların iştirakı ilə digər istintaq hərəkətlərinin mütəmadi aparılmaması, zərurəti aşkar görünən istintaq hərəkətləri və məhkəmə ekspertizalarının obyektiv səbəblər olmadan vaxtında keçirilməməsi ... süründürməçilik kimi qiymətləndirərək zəruri tədbirlərin görülməsinə dair təklifləri nəzərdə tutan arayışların tərtib edilməsini, qanun pozuntularına yol vermiş müstəntiq və təhqiqatçılarla yanaşı, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorların da məsuliyyət məsələsi qaldırılmaqla müvafiq təqdimatların verilməsini və altı ayda bir dəfədən az olmayaraq bu sahədə görülmüş işlərin vəziyyətini ümumiləşdirməklə nəticələrinin əməliyyat müşavirələrində, zəruri hallarda kollegiya iclaslarında müzakirəyə çıxarılmasını təmin etsinlər; İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən ərazi prokurorları ... ağır və xüsusilə ağır cinyətlər törədildikdə, habelə xüsusi ictimai

əhəmiyyət kəsb edən hadisələr barəsində məlumatlar alındıqda hadisə yerinə şəxsən gedib, keyfiyyətli baxış, təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılması ... qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və zərurət olduqda digər cinayət hadisələri ilə bağlı müvafiq ərazi üzrə təhkim olunmuş Kriminalistika şöbəsinin prokuroruna məlumatların vaxtında verilməsi, onların hadisə yerinə baxış, maddi sübutların müəyyən edilib, götürülməsi, digər təxirəsalınmaz istintaq hərəkətlərində, ekspertizaların təyin edilməsində iştirakı üçün tədbirlər görülməsini ... ibtidai istintaq aparılması zəruri olan işlər üzrə baxışın dərhal keçirilməsi tələb olunduğu bütün hallarda hadisə yerinə müstəntiqin çıxmasını ... qəsdən adam öldürmə cinayətlərinin istintaqı zamanı təqsirləndirilən şəxslər barəsində mütləq məhkəmə-psixiatrik ekspertizaların keçirilməsini, məhkəmə-psixiatrik ekspertizasının təyin edilməsi zərurəti yarandıqda onun keçirilməsi məqsədi ilə şəxsiyyəti xarakterizə edən ətraflı məlumatların toplanılması, təqsirləndirilən şəxsin ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətməsi və ya məhkəməyədək psixi xəstəliyə tutulmasına dair ekspertiza rəyi alındıqda cinayət işinin öyrənilməsi üçün yuxarı prokurora dərhal təqdim edilməsi, kifayət qədər əsaslar olduqda obyektiv və əsaslandırılmış rəyin alınması üçün təkrar və ya komisyon ekspertizaların təyin edilməsini ... böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat zamanı istintaq hərəkətlərinin yalnız qanunda nəzərdə tutulmuş əsaslar olduqda aparılmasını ... təmin etsinlər». Göründüyü kimi, Baş prokurorun 28 iyul 2010-cu il tarixli, 10/70 №-li Əmri istintaq hərəkətlərinin icraatı və bunun üzərində prokuror nəzarətinə dair bir sıra müddəalar nəzərdə tutur.

Fikrimizcə, bunların sırasında ən əhəmiyyətlilərindən biri istintaq hərəkətlərinin icraatında intensivlik tələbidir. Hesab edirik ki, nəzərdən keçirilən Əmrin məzmununa görə, intensivlik tələbi 5 gündən artıq olan müddət ərzində istintaq hərəkətlərinin icraatında fasilənin istisna edilməsi kimi başa düşülə bilər. Maraqlıdır ki, istintaq hərəkətlərinin intensivliyinə dair tələbə nəzəri mənbələrdə

də rast gəlinir. Məsələn, prof. M.Ə. Cəfərquliyev göstərir ki: «Cinayət-prosessual qanunvericiliyin tələbinə görə, müstəntiq cinayət işini icraatına qəbul etdikdən sonra gecikdirmədən, yəni dərhal ibtidai araşdırmaya başlamalı, cinayətin açılmasını, işin hallarının tam, obyektiv və hərtərəfli yoxlanılmasını, cinayəti etməkdə təqsiri olan şəxsin cinayət məsuliyyətinə alınmasını təmin etməli və bu məqsədlə *intensiv surətdə* (*qeyd etmə – A.Ə. Teymurov*) istintaq hərəkətlərini aparmalıdır» [7, s. 423]. Bəs istintaq hərəkətlərinin intensivliyi nədir?

İntensiv sözü latın mənşəli *intensio* sözündən götürülmüşdür və Azərbaycan dilinin izahlı lüğətində iki anlamda izah edilir: 1) gərgin, güclü, qızğın; 2) daha böyük səmərə verən, daha məhsuldar [6, s. 408]. Hesab edirik ki, sözün etimologiyası baxımından birinci anlamında intensivlik tələbini istintaq hərəkətlərinə aid etmək bir o qədər məqsədəuyğun deyildir. Çünki istintaq hərəkətlərinin gərgin şəraitdə və qızğın şəkildə, yəni aralarında zaman fasiləsi vermədən (çox az zaman fasiləsi verməklə), say çoxluğu əsas götürülməklə, keyfiyyət göstəriciləri nəzərə alınmadan və s. bu kimi hallarda həyata keçirilməsi şübhəsiz onların effektivlik dərəcəsinin azalmasına, əldə edilmiş informasiyanın (əşya və sənədlərin) isə sübutedici qüvvəsinin itirilməsinə səbəb olacaqdır. Sözün ikinci anlamda intensivlik tələbini istintaq hərəkətlərinə aid etmək olar. Belə ki, həqiqətən də, istintaq hərəkətləri səmərəli, yəni sübutetmə predmetinə aid olan halların müəyyən edilməsi üçün yararlı, eyni zamanda məhsuldar, yəni nəticədə bir qayda olaraq, yeni sübutların əldə edilməsinə yönəlmiş olmalıdır. Hesab edirik ki, intensivlik tələbini istintaq hərəkətlərinə münasibətdə məhz ikinci anlamda başa düşmək daha məqsədəuyğundur.

Baş Prokurorun konkret istintaq hərəkəti barədə müddəalar nəzərdə tutan Əmrləri sırasında 24 sentyabr 2010-cu il tarixli, 10/88 №-li Əmrini və bu Əmrlə təsdiq edilmiş «Müsadirə və onunla bağlı cinayət-prosessual tədbirlərin tətbiqi üzrə» Qaydaları da göstərmək olar. Bu Qaydalarda əmlak üzərinə həbs qoyulması istintaq hərəkətinin icraatı barədə bir sıra müddəalara rast gəlmək mümkündür.

Məsələn, həmin Qaydaların 15-ci bəndinə əsasən, əmlak üzərinə həbs qoyularkən, əmlakın dəyərinin müəyyənləşdirilməsi üçün mütəxəssis-əmtəəşünas cəlb edilə bilər və ya müvafiq ictimai təşkilatlara müraciət edilə bilər. Qeyd edilir ki, məsələn, daşınmaz əmlakın dəyərinin müəyyən edilməsi üçün «Əmlak Bazarı İştirakçıları» ictimai birliyinə müraciət etmək mümkündür.

Baş Prokurorun digər bir əmri isə bizim üçün həm ayrı-ayrı istintaq hərəkətlərinin icraatı qaydaları, həm də prokuror-kriminalistlərin istintaq hərəkətlərinin icraatı ilə bağlı nəzarət səlahiyyətlərinin həcmi və xarakterinin (yəni, qeyri-prosessual xarakterinin) müəyyən edilməsi baxımından böyük maraq doğurur.

Belə ki, Baş prokurorun «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kriminalistika xidmətinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və bu sahədə bəzi struktur dəyişiklikləri aparılması haqqında» 18 noyabr 2010-cu il tarixli, № 10/103-11/13s Əmrinin 6-cı bəndinin ayrı-ayrı hissələrinə görə: «Baş prokurorluğun ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin Kriminalistika şöbələrinin böyük prokurorları və prokurorlarının istintaqı prokurorluq orqanlarına həvalə edilmiş cinayətlərlə bağlı, o cümlədən AR CM-in 100, 102, 103, 105-113, 120-126, 135-138, 145, 146, 149, 156-158, 161-162, 222-223, 262, 268, 287, 288, 315, 317-ci maddələri ilə nəzərdə tutulan sülh və insanlıq, şəxsiyyət, insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları, ictimai təhlükəsizlik və ictimai qayda, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər, həmçinin Baş Prokurorluğun rəhbərliyinin göstərişi əsasnda digər cinayətlər üzrə hadisə yerinə baxışda, istintaq planının tərtibində, maddi sübutların götürülməsində və ilkin tədqiqində, ekspertizaların təyin edilməsində təxirəsalınmaz ilkin və digər zəruri istintaq hərəkətlərinin yerinə yetirilməsində mütləq iştirakı, onların yazılı surətdə verdikləri və ya müvafiq protokollarda əks olunmuş tövsiyələrinin ərazi üzrə tabe prokurorlar və cinayət işlərinin istintaqını aparan istintaqçılar tərəfindən nəzərə

alınması … müvafiq hallarda ibtidai istintaq planının tərtib edilməsi, zəruri ekspertizaların təyin edilməsi, ekspert qarşısında sualların qoyulması, ibtidai istintaqın tam, hərtərəfli və obyektiv aparılmasının təmin edilməsi üçün müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun kriminalistika texnikası, taktikası və metidokası imkanlarından səmərəli istifadə edib-etməməsi barədə rəy hazırlaması, zəruri olduqda müstəntiq tərəfindən qəbul edilmiş qərarların ləğv edilməsinə dair təqrirlə şöbə rəisinə müraciət edilməsi, müraciət əsaslı olduqda idarə rəisi tərəfindən müstəntiqin qərarının ləğv edilməsi məsələsinə baxılmasına dair yuxarı prokurora vəsatət verilməsi … zəruri olan hallarda istintaq hərəkətlərində mütəxəssislərin iştirakı ilə bağlı təşkilati və metodiki məsələlərin həll olunması … maddi sübutlarla işin təşkili – hadisə yerində onların aşkar edilməsi, fiksasiya olunması, götürülməsi, qablaşdırılmasında müstəntiqlərə metodiki və texniki yardım göstərilməsi, maddi sübutların saxlanmasına, mühafizəsinə, hərəkətinə və uçotuna nəzarətin həyata keçirilməsi … istintaq qruplarının tərkibinə daxil edildiyi hallarda prosessual səlahiyyətləri və qrup rəhbərinin tapşırığına uyğun olaraq ayrı-ayrı istintaq hərəkətlərinin aparılması təmin edilsin».

Nəhayət, nəzərdən keçirilən Əmrlərdən başqa, Baş prokurorun «Cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxs qismində tutulan, habelə barəsində həbs qətimkan tədbiri seçilən şəxslərlə prokurorluq orqanlarında istintaq hərəkətləri aparılması zamanı onların mühafizəsinin daha da gücləndirilməsi barədə» 6 dekabr 2007-ci il tarixli, № 10/105 Göstərişinin 2, 3 və 4-cü bəndlərində tələb edilir ki: «Şübhəli və ya təqsirləndirilən şəxslərlə istintaq hərəkətlərinin aparılmasını bir qayda olaraq onların həbsdə saxlanıldığı yerlərdə, müstəsna hallarda – cinayət işinin və istintaq hərəkətlərinin xüsusiyyətlərini (üzləşdirmə, ifadələrin yerində yoxlanılması və istintaq eksperimenti), onların iştirakçılarını (qadın, uşaq, qoca, xəstə və s.) nəzərə almaqla, prosessual rəhbərliyi həyata keçirən prokurorun təsdiq edilmiş tələbnamələri əsasında müstəntiqin xidməti otağında,

yaxud ərazidə keçirilməsi təmin edilsin; Şübhəli və ya təqsirləndirilən şəxslərlə istintaq hərəkətlərinin aparılması zamanı hər bir halda Azərbaycan Respublikası Baş Prokurorluğu, Ədliyyə və Səhiyyə nazirlikləri ilə razılaşdırılmaqla Daxili İşlər Nazirinin 26 noyabr 2001-ci il tarixli № 428 Əmri ilə təsdiq edilmiş «Polis orqanlarının müvəqqəti saxlama təcridxanalarında saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair» Təlimatın 3.67, 3.75-ci bəndlərinə əsasən istintaq hərəkətlərinin icraatı zamanı şübhəli və ya təqsirləndirilən şəxsləri müşayiət edənlərin 2-3 nəfərdən ibarət olmasını, onların şübhəli və ya təqsirləndirilən şəxslərin yanından ayrılmamasını (o cümlədən, istintaq hərəkətləri aparılan otaqda) və sonuncuların əllərinə qandal vurulması təmin edilsin; İsitintaq hərəkətlərinin yerinə yetirilməsi zamanı xidməti iş otaqları və ya bu hərəkətlərin yerinə yetirildiyi ərazilərdə cinayət törətmək üçün istifadə edilə biləcək əşyaların (lezviya, bıçaq, qayçı, külqabı və s.), həmçinin iş üçün əhəmiyyətli sənədlərin məhv edilməsinin qarşısının alınması məqsədi ilə zəruri tədbirlərin görülməsi təmin edilsin». Göründüyü kimi, bu göstərişlərdə də istintaq hərəkətlərinin icraatı ilə bağlı əhəmiyyətli təşkilati məsələlərə yer verilmişdir.

## References

1. Abbasova F.M. Cinayet prosesi. Derslik. Umumi hisse. [Criminal process. Textbook. General Part]. Yeniden islenmis ikinci nesr [Supplemented, second edition]. Baku, 2015, 412 p.

2. Azerbaycan Respublikasinin 12 noyabr 1995-ci il tarixli Konstitusiyasi [Constitution of Azerbaijan Republic of 12 November 1995].

3. Azerbaycan Respublikasinin 30 dekabr 1999-cu il tarixde qebul edilmis, 1 sentyabr 2000-ci il tarixde quvveye minmis Cinayet Mecellesi [Criminal Code of Azerbaijan Republic of 30 December 1999; entered into force on 1 September 2000].

4. Azerbaycan Respublikasinin 14 iyul 2000-ci il tarixde qebul edilmis, 1 sentyabr 2000-ci il tarixde quvveye minmis Cinayet-Prosessual Mecellesi [Code of Criminal Procedures of 14 July 2000; entered in force on 1 September 2000].

5. Azerbaycan Respublikasinin Cinayet-Prosessual Mecellesinin kommentariyasi [Code of Criminal Procedure of Azerbaijan Republic] / C.H. Movsumov, B.C. Kerimov, A.H. Huseynovun redaktesi ile [edited by C.H. Movsumov, B.C. Kerimov, A.H. Huseynov]. Baku, 2016, 1336 p.

6. Azerbaycan dilinin izahli lugeti [Explanatory Dictionary of Azerbaijani language] red. Orucov A. II cild [edited by Orucov A. Vol. II]. Baku, 1980, 576 p.

7. Ceferquliyev M.A. Azerbaycan Respublikasinin Cinayet prosesi. Dərslik [Criminal process of Azerbaijan Republic. Textbook]. Baku, 2008, 768 p.

8. Gurin A.D. Prisutstvie pri provedenii sledstvennykh deyistviyi prokurora kak forma prokurorskogo nadzora i mera povysheniya effektivnosti deyatel’nosti organov predvaritel’nogo sledstviya [Presence of prosecutor at conducting of investigative actions as a form of prosecutor supervision and measure increasing of effectiveness of activity of preliminary investigative bodies]/Regional’naya prestupnost’: sostoyaniye, problemy i perspektivy bor’by. Materialy mezhdunarodnoy nauchno-prakticheskoyi konferentsii [Regional criminality: state, problems and prospects of fight. Materials of international scientific practical conference]. Kursk, 2008, pp. 350-353.